# Güclü lider və qüdrətli dövlət tandemi



**_Azad, güclü dövlətə, şanlı tarixə və zəngin mədəniyyətə sahib olan xalqlar və millətlər xoşbəxt olurlar. Mən məmnunam ki, Azərbaycan xalqı yüksək dəyərlərə malik olan xalqlardandır. Onun müstəqil güclü dövləti və çağdaş dünyanın ən müdrik dövlət xadimlərindən olan Prezident İlham Əliyev kimi qətiyyətli lideri vardır._**

**_Məlumdur ki, 2018-ci il aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkilərində xalqımızın sevimli lideri İlham Əliyev ölkə vətəndaşlarının böyük əksəriyyətinin azad və sərbəst səsverməsi nəticəsində növbəti dəfə dövlətimizin başçısı vəzifəsinə seçilmişdir. Bununla da Azərbaycan xalqı öz müdrik rəhbərinə bir daha özünün dərin inam və ehtiramını ifadə edib. Zaman və tarix göstərdi ki, dörd il əvvəl xalqımız bir daha ədalətli və müdrik seçim edib._**

Xatırladaq ki, 2018-ci il aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Tədbirdə dövlətimizin başçısı parlaq və dərin məzmunlu nitq söyləyib. Prezident ona göstərilən böyük etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirərək qeyd edib ki, o, bu dəstəyi hər zaman hiss edibdir və bu dəstək ona sonsuz mənəvi güc verir. Cənab İlham Əliyev doğma xalqını bir daha əmin edib ki, o, bundan sonra da Vətənə ləyaqətlə xidmət edəcək.

Dövlətimizin başçısı tədbirdəki geniş nitqində daha sonra bildirmişdir: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin həmin mərasimdəki nitqi Azərbaycanın parlaq gələcəyinə hesablanmış proqram xarakterli çıxış idi. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan dövləti əldə edilmiş nailiyyətlərlə kifayətlənmək fikrində deyildir. Müstəqil Azərbaycanın yüksək hədəfləri və bu hədəflərə nail olmağa imkan yaradan resursları mövcuddur. Ən başlıcası, ortada Azərbaycan Prezidentinin siyasi iradəsi vardır.

Qeyd etmək lazımdır ki, həqiqətən, əldə olunan parlaq uğurlar gələcəyə daha inamla baxmağa imkan verir. Təsadüfi deyildir ki, Prezident bu xüsusda belə demişdir: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq".

Qarşıda duran ən böyük vəzifə Qarabağ probleminin ədalətli həlli idi. Azərbaycan dövləti və onun lideri ordu quruculuğu sahəsində qətiyyətli və düşünülmüş böyük işlər görürdü. Bu istiqamətdə aparılan gərgin işlər öz bəhrəsini mütləq verməli idi və verdi də! Xalqın öz liderindən böyük gözləntiləri vardı və xalq yanılmadı. Prezident İlham Əliyev xalqının ən ülvi arzusunu həyata keçirdi. O, tarixdə çox az siyasətçiyə nəsib olan xoşbəxt dövlət xadimlərindəndir.

Bəli, andiçmə mərasimindən iki il dörd ay sonra işğalçı Ermənistanın silahlı qüvvələrinə qarşı başlanan şanlı Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Cəmi 44 gün ərzində xalqımız tarixi zəfərə imza atdı. Bununla da Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. Bu şanlı qələbədə Ali Baş Komandan, Prezident İlham Əliyevin müstəsna xidmətləri olubdur. Qədirbilən xalqımız bütün dünyada onun başını uca edən böyük sərkərdə və müdrik lideri ilə hər zaman fəxr edəcək!

Azərbaycan Prezidenti son iki ildə düşməndən azad edilmiş ərazilərdəki kənd və şəhərlərdə, xüsusilə də milli mədəniyyətimizin tacı olan Şuşada dəfələrlə olub. Dövlətimizin başçısı 2021-ci il dekabrın 28-də Şuşanı növbəti dəfə ziyarət edərkən Cıdır düzündə parlaq, dərin məzmunlu çıxış edərək demişdir: "Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində mənə inanırdı. Baxmayaraq ki, həm o vaxtkı məcburi köçkünlər, həm ölkə ictimaiyyəti ildən-ilə davam edən mənasız danışıqlara nəzər salaraq görürdü ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli çətinləşir. Amma buna baxmayaraq, doğma xalqım mənim sözlərimə inanırdı. Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən, Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

Prezident sonra qeyd edib ki, o, bir şeyə kədərlənir ki, bu xoşbəxt günü ulu öndər Heydər Əliyev görə bilməyib. Dövlətimizin başçısının bu kövrək, səmimi sözləri bu gün də hər birimizi çox duyğulandırır. Cənab İlham Əliyev həmin kövrək çıxışı zamanı sanki hər birimizin ürəyini oxuyurmuş kimi demişdir: "Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qanını aldıq və əcdadlarımızın ruhunu şad etdik".

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı öz liderinin ətrafında bir yumruq kimi birləşdi. O yerdə ki, milli birlik, həmrəylik var, orada həmişə uğur və qələbə olacaq. Biz bu xoşbəxtliyə xalq-iqtidar birliyi sayəsində nail olmuşuq. Bəli, biz birlikdə güclüyük! Bu həqiqəti heç vaxt unutmamalıyıq. Bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir. Azərbaycan xalqı Qarabağı şəhidlərinin canı-qanı bahasına azad edibdir. Heç bir qüvvə bundan sonra bizi Şuşadan, Qarabağdan ayrı sala bilməz!

2020-ci il dekabrın 10-da Bakıda möhtəşəm Zəfər paradı keçirildi. Azərbaycan və Türkiyə prezidentlərinin tədbirdəki parlaq çıxışları bu gün də hər birimizin yaddaşına həkk olunub. İki qardaş xalqın liderləri bütün dünyaya bəyan etdilər ki, Azərbaycan və Türkiyə xalqlarının dostluğu və qardaşlığı əbədidir. Bu sarsılmaz birliyi heç bir qüvvə sarsıda bilməz! Dostlarımız buna, əlbəttə, çox sevinirlər. Azərbaycanın dostlarının sayı isə günbəgün artır.

Məlumdur ki, işğalçı Ermənistan Qarabağdakı şəhər və kəndlərimizi vandalcasına dağıtmışdır. Azərbaycan xalqı isə bu gün işğaldan azad edilmiş ərazilərdə böyük həvəslə və şövqlə qurub-yaratmaqla məşğuldur. Orada bir-birindən gözəl yollar çəkilir, məktəblər, yaşayış evləri ucaldılır. Dünyanın gözü önündə Qarabağın yeni novrağı başlayır. Təkcə Qarabağ deyil, yurdumuzun hər bir guşəsi laləzara çevrilir. Prezident İlham Əliyevin siyasətinin məramı məhz budur.

Prezident İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan dövləti regionda ədalətli və davamlı sülhün bərqərar olunması üçün çalışır. Rəsmi Bakı Ermənistanla sülh sazişinin imzalanmasında, kommunikasiya xətlərinin açılmasında qərarlıdır. Əslində, bölgədə sülh və sabitliyin bərqərar olunması, regionun bütün ölkələrinə, o cümlədən, Ermənistana fayda gətirə bilər. Dünya bunun fərqindədir və Azərbaycanın prinsipial və konstruktiv mövqeyini təqdir edir.

Son illər ölkəmizdə Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyilə hərtərəfli islahatlar aparılır. Məqsəd ölkəmizin iqtisadi, hərbi qüdrətini daha da gücləndirmək, əhalinin sosial rifahını yaxşılaşdırmaqdır. Görünən budur ki, Prezident İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyası iqtisadiyyatın bütün sahələrində artım dinamikasının qorunub saxlanmasını təmin edibdir.

Bu gün ölkəmiz sosial rifah dövlətinə çevrilir. Azərbaycan dünya miqyasında sürətlə, uğurla inkişaf edən dövlətlərdən biridir. Ölkəmizin iqtisadi, hərbi potensialı daim güclənir. Azərbaycan gücləndikcə, Birinci və İkinci Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə diqqət və qayğı daha da artır. Azərbaycanda vətəndaş məmnunluğu yaranır, insanların özlərinə və dövlətlərinə inamı daha da güclənir.

Azərbaycanda bu gün güclü lider və qüdrətli dövlət tandemi formalaşıb. Bu tandem xalqın öz liderinə olan dərin inamından qidalanır. Dövlət o vaxt güclü olur ki, orada iqtidarla xalqın arasında bir doğmalıq, birlik olsun. Azərbaycan dövləti, onun lideri hər zaman xalqının qayğı və problemlərinə arxa, həyan olub.

İnanırıq ki, bu müdrik siyasət bundan sonra da uğurla davam edəcək. Xalqımız haqlı olaraq öz sevimli və müdrik lideri, Prezident İlham Əliyevlə fəxr edir və hər zaman belə olacaq. Bu, ulu öndərin müəyyən etdiyi, Azərbaycanın xoşbəxt bu gününə və parlaq gələcəyinə xidmət edən uğur və qələbə yoludur.

**_Məsaim ABDULLAYEV,_**
**_"Xalq qəzeti"_**